Paltar köhnəldiyi kimi içinizdəki iman da köhnəlir. Allahdan qəlblərinizdəki imanın yenilənməsini istəyin

Abdullah bin Amrdan (Allah onların ikisindən də razı olsun) Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: "Paltar köhnəldiyi kimi içinizdəki iman da köhnəlir. Allahdan qəlblərinizdəki imanın yenilənməsini istəyin".

[Səhih] [Əl-Hakim və Ət-Tabarani rəvayət etdi]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) bildirir ki, uzun müddət isifadə olunan yeni geyim köhnəldiyi kimi, müsəlmanın qəlbindəki iman da köhnəlir və zəifləyir. Bu, ibadətdəki zəiflik, günahlara bulaşmaq və şəhvətlərə qapılmaq səbəbilədir. Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) bizi uca Allaha imanımızın təzələnməsi üçün dua etməyə, fərzləri yerinə yetirməyə və çoxlu zikr və istiğfar etməyə istiqamətləndirir.

http://www.sunnah.global/hadeeth/az/show/65020